“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 may 2015-ci il № 37 (1953) Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin və səfər çərçivəsində keçiriləcək görüşlərin səmərəli olacağına əminliyini bildirdi.***

***Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Türkiyə Respublikası Baş nazirinin müavini Əli Babacanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Türkiyənin G-20-yə rəhbərlik etməsini qardaş ölkənin böyük qələbəsi kimi dəyərləndirən dövlətimizin başçısı Azərbaycanın buna çox sevindiyini dedi. Prezident İlham Əliyev bunu həm də dünyanın aparıcı dövlətləri tərəfindən Türkiyənin roluna göstərilən yüksək münasibətin ifadəsi kimi qiymətləndirdi.***

* * *

***✓Mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və qızı Arzu Əliyeva paytaxtda Avropa Oyunları Parkının açılışında iştirak ediblər.***

***Parkda yaradılan şəraitlə tanış olandan sonra dövlətimizin başçısı və xanımı Avropadan olan rəsmi və texniki heyətə xidmət göstərəcək taksilərə baxdılar. Mayın 29-dan istifadəyə veriləcək bu taksilər oyunlar zamanı federasiyaların, beynəlxalq idman qurumlarının rəhbərlərinə və digər vacib şəxslərə xidmət göstərəcək. Oyunlar zamanı 500 belə taksi fəaliyyət göstərəcək. Bu isə öz növbəsində Avropa Oyunları ilə bağlı ölkəmizə gələn qonaqların rahatlığını təmin etmək baxımından önəmlidir.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Almaniya Federativ Respublikası Bundestaqının Cənubi Qafqaz Dostluq Qrupunun sədri xanım Karin Ştrentsin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığının xüsusi rolu qeyd olundu, ölkəmizin təşəbbüsü ilə reallaşan iri enerji layihələrinin önəmi vurğulandı, TANAP və TAP layihələrinin perspektivindən danışıldı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.***

**AZƏRTAC-ın materialları əsasında**

# Vyetnam Prezidentinin Azərbaycana rəsmi səfəri

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın mayın 14-də rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Çıonq Tan Şanqa, Vyetnam Sosialist Respublikasının nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın məhdud tərkibdə görüşü olub.

* * *

Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın iştirakı ilə Azərbaycan-Vyetnam sənədlərinin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanq mətbuata birgə bəyanatlarla çıxış ediblər.



### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfəriniz Vyetnam-Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm mərhələ olacaqdır. Keçən il mən Vyetnama dövlət səfəri etmişəm. Səfər çox uğurlu keçmişdir. Mənə göstərilən qonaqpərvərlik heç vaxt yadımdan çıxmaz. Hesab edirəm, bir il ərzində artıq Sizin Azərbaycana səfəriniz onu göstərir ki, bizim aramızda inkişafda olan əlaqələr çox intensiv xarakter daşıyır.

Bu gün biz ikitərəfli əlaqələrimizin müxtəlif sahələrini geniş şəkildə müzakirə etdik. Bir daha gördük ki, bir çox məsələlərlə əlaqədar bizim mövqeyimiz üst-üstə düşür. İlk növbədə, hər iki tərəf ikitərəfli əlaqələrini genişləndirmək fikrindədir. İlk növbədə, siyasi əlaqələrimiz inkişaf edəcəkdir. Hazırda siyasi əlaqələr çox yüksək səviyyədədir. Qarşılıqlı səfərlər bunu təsdiqləyir. Eyni zamanda, biz beynəlxalq təşkilatlar çərçivəsində də çox uğurla əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Bu gün aparılan danışıqlar nəticəsində qərara gəldik ki, gələcəkdə də bütün beynəlxalq təşkilatlarda biz bir-birimizi dəstəkləyəcəyik. Bu, çox önəmli məsələdir. Çünki bu, ikitərəfli əlaqələrin yüksək səviyyəsini əyani şəkildə göstərir.

Bu gün, eyni zamanda, regional təhlükəsizlik məsələləri haqqında fikir mübadiləsi apardıq. Mən cənab Prezidenti bizim regionda baş verən hadisələrlə bağlı məlumatlandırdım. Qeyd etdim ki, regional təhlükəsizlik üçün əsas məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, uzun illər bu məsələ öz həllini tapmır. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasına dair dörd qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, Ermənistan buna məhəl qoymur, bu qətnamələri icra etmir və beləliklə, işğal davam edir.

Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ərazimizin 20 faizi hələ də işğal altındadır. Bir daha qeyd etməliyəm ki, bir çox beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz ədalətli mövqeyini bildirmişdir. BMT, onun Təhlükəsizlik Şurası, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı - bütün bu mötəbər təşkilatlar birmənalı olaraq Azərbaycanın haqq işini dəstəkləyərək müvafiq qərar və qətnamələr qəbul etmişlər.

Bu məsələ və bütün başqa məsələlər beynəlxalq hüquq əsasında öz həllini tapmalıdır. Beynəlxalq hüququn fundamental prinsipi isə ölkələrin ərazi bütövlüyüdür. Bu məsələdə beynəlxalq birlik vahid mövqe nümayiş etdirməlidir. Burada heç bir ayrı-seçkiliyə yol verilməməlidir. Bütün ölkələrin ərazi bütövlüyü eyni yanaşma ilə tənzimlənməlidir.

Bu gün biz, əlbəttə ki, iqtisadi sahədə görülən işlər haqqında fikir mübadiləsi apardıq. Çox müsbət haldır ki, aramızda olan ticarət dövriyyəsi yüksək səviyyədədir, daha da yüksələ bilər. Buna nail olmaq üçün konkret tədbirlər planı hazırlanmalıdır. Biz bu barədə də danışdıq. Hesab edirəm ki, ticarət dövriyyəsinin artırılması üçün yaxşı imkanlar var. Qarşılıqlı investisiya qoyuluşu məsələləri müzakirə edildi. Bu sahədə də həm Vyetnam, həm Azərbaycan şirkətlərinin artıq təcrübəsi vardır. Bu gün keçiriləcək biznes forumda əminəm ki, iki ölkənin biznes qurumları da bu məsələ ilə bağlı öz sözünü deyəcəklər. Bir sözlə, iqtisadi və ticarət əlaqələrimiz bizim ümumi əməkdaşlığa çox müsbət təsir göstərir və gözəl perspektivlər də vardır.

Təbii ki, ənənəvi olaraq neft-qaz sahəsində əməkdaşlıqla bağlı bu gün biz məruzələri də dinlədik. Bu sahədə çox gözəl təcrübə var. Vaxtilə Azərbaycan mütəxəssisləri Vyetnamda neft-qaz sahəsində işləmişlər, öz təcrübələrini bölüşmüşlər. Bu gün də buna imkan var. Bu gün biz artıq Vyetnam şirkətlərini Azərbaycana dəvət edirik. Azərbaycanda zəngin neft-qaz yataqları vardır. İstərdik ki, Vyetnam şirkətləri də bizim yataqlarımızda, onların işlənməsində iştirak etsinlər. Eyni zamanda, Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR da artıq beynəlxalq enerji şirkətinə çevrilib və böyük maraqla Vyetnamda işləmək üçün səylər göstərir.

Bu gün, eyni zamanda, humanitar sahədə əməkdaşlıq da diqqət mərkəzində idi. Burada da gözəl təcrübə, gözəl ənənələr var. Mən keçən il Vyetnamda olarkən vaxtilə Azərbaycanda təhsil almış vyetnamlı tələbələrlə görüşmüşdüm. Çox səmimi bir görüş idi və mən onları Azərbaycana dəvət etdim. Şadam ki, onlar bir həftə bundan əvvəl Azərbaycana gəlib öz doğma yerlərinə bir daha baxıblar. Əminəm ki, Vətənə çox xoş təəssüratlarla qayıdıblar. Eyni zamanda, Vyetnam-Azərbaycan Dostluq Forumu da keçirilmişdir. Bu gün cənab Prezidentlə bir daha bu məsələ ilə bağlı öz fikirlərimizi bildirdik. Biz də istəyirik ki, Vyetnamdan daha çox tələbə Azərbaycana gəlsin və burada təhsil alsın. Beləliklə, bizim əlaqələrimiz daha da genişmiqyaslı ola bilər.

Bir sözlə, çıxışımı yekunlaşdıraraq qeyd etməliyəm ki, bizim əlaqələrimiz artıq yüksək səviyyədədir. Bir il ərzində iki dövlət səfəri həyata keçirilir. Bu, özlüyündə bir göstəricidir. Əlaqələrimizin mahiyyəti də çox müsbətdir, çox möhkəmdir. Gələcəkdə biz iki dost ölkə kimi əlaqələrimizi daha da genişləndirəcəyik və Vyetnam-Azərbaycan dostluğunu daha da möhkəmləndirəcəyik.

Cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Bir daha Sizə "Xoş gəlmisiniz!" deyirəm.

### Prezident Çıonq Tan Şanqın bəyanatı

- Hörmətli cənab Prezident İlham Əliyev.

Hörmətli dostlar.

Mən Azərbaycana səfər etmək imkanından çox məmnunam. Azərbaycan çox gözəl ölkədir, qədim tarixə, mədəniyyətə malikdir. Biz bilirik ki, bu ölkənin çox zəngin potensialı var və Azərbaycan bizə çox dost ölkədir. Bizə göstərilən səmimi qəbula və ehtirama görə cənab Prezident, Sizə, azərbaycanlı dostlarımıza minnətdarıq. Vyetnam nümayəndə heyətinə və mənə yüksək qonaqpərvərlik göstərilmişdir. Bizim ölkələrimiz arasındakı münasibətlər inkişaf edir.

Bizim bu gün cənab Prezident İlham Əliyev ilə çox məhsuldar və səmərəli danışıqlarımız oldu. Cənab Prezident ilə biz yekdilik ki, Vyetnam və Azərbaycan çox böyük imkanlara malikdirlər. Bu, bizə imkan verir ki, əlaqələrimizi, əməkdaşlığımızı, iqtisadi və ticari sahədə işbirliyimizi daha da artıraq və digər sahələrdə işləyək.

Biz, həmçinin qeyd etdik ki, artıq imzalanmış sazişlər həyatda öz əksini tapsın və bu gün imzalanan sazişləri də icra edək. Biz bu gün nəzərdən keçirməliyik ki, yaxın gələcəkdə daha hansı sazişləri imzalayaq ki, əməkdaşlığımızı daha da inkişaf etdirək.

Biz digər vacib məqamları da nəzərdən keçirdik. Hər iki tərəf razılığa gəldi ki, nümayəndə heyətlərinin səfərlərinin, xüsusən də yüksək səviyyəli səfərlərin sayı artsın. Cənab Prezident qeyd etdi ki, son bir il ərzində biz olduqca mühüm iki dövlət səfərini həyata keçirdik. Bu, bir daha bizim etimada əsaslanan münasibətlərimizi nümayiş etdirir. Bizim Xarici İşlər nazirliklərimiz arasında daha sıx məsləhətləşmələrin aparılması vacibdir ki, beynəlxalq səviyyədə atdığımız addımlarımızı əlaqələndirək. Nümayəndə heyətlərinin səfərləri daha da artmalıdır. Müxtəlif nazirliklər və qurumlar arasında səfərlər mübadiləsi aparılmalıdır. Biz imzalanmış sazişləri icra etməliyik.

Vyetnam Prezidenti Çıonq Tan Şanq ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlıq əlaqələrinin də inkişaf etdiyini diqqətə çatdırdı, bu sahədə yaxşı perspektivlərin olduğunu bildirərək dedi:

- Bizim ölkələrimiz arasında əməkdaşlıq artıb. 2014-cü ildə ticarət dövriyyəsi 422 milyon ABŞ dolları təşkil edib ki, bu da 2013-cü il ilə müqayisədə 30 faiz artım deməkdir. Qeyd etmək istəyirik ki, hökumətlərarası komissiyanın ilk iclası keçirilmişdir. Bu məqsədlə biz neft və qaz sahəsində əməkdaşlığı genişləndirmək əzmindəyik. Bu, əməkdaşlıq üçün olduqca vacib bir sahədir.

Bu əlaqələrimizin strateji əsası var. Çünki Prezidentimiz Xo Şi Min vaxtilə Bakıda zəngin neft-qaz yataqlarına səfər etdikdə onun bir arzusu var idi ki, biz bu sahələrdə birgə işləyək.

Vyetnamın Prezidenti regional təhlükəsizliyin təmin olunmasının sülh və danışıqlar yolu ilə həllinin vacibliyini bildirərək dedi:

- Biz istərdik ki, məhz Vyetnam ilə Azərbaycan arasındakı əməkdaşlıq, dostluq geniş şəkildə inkişaf etsin. Bu, hər iki ölkəyə, bizə çox konkret fayda verəcəkdir.

Cənab Prezident, hörmətli dostlar, diqqətinizə görə çox sağ olun.

* * *

Mayın 14-də Bakıda Azərbaycan-Vyetnam biznes forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanq biznes forumunda iştirak ediblər.

Dövlət başçıları forumda çıxış ediblər.

**AZƏRTAC-ın materialları əsasında**

# NATO-nun Atlantik Müqaviləsi Assosiasiyasının tədbirində Azərbaycanın uğurlarından danışılıb

Mayın 12-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Türkiyənin Antalya şəhərində NATO-ya üzv dövlətlərin xarici işlər nazirlərinin iclası ərəfəsində NATO-nun əsas beyin mərkəzi sayılan Atlantik Müqaviləsi Assosiasiyası (ATA) tərəfindən təşkil olunan "Gənclərin nazirlər iclası"nda çıxış edib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov çıxışında NATO-nun Əfqanıstanda həyata keçirdiyi missiyaya Azərbaycanın verdiyi töhfələr və iki ölkə arasında münasibətlər barədə danışıb. O, Azərbaycanın ISAF əməliyyatında sonadək əzmlə iştirak etdiyini və bunun 2015-ci ilin yanvarından başlayan Qətiyyətli Dəstək missiyası kontekstində də davam etdirdiyini vurğulayıb.

Elmar Məmmədyarov Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra üzləşdiyi bir çox problemlər barədə danışıb, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində ərazilərimizin 20 faizinin işğal olunduğunu, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü qeyd edib. O, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə əlaqədar qəbul etdiyi qətnamələrin ikili standartlara əsaslanan yanaşma nəticəsində hələ də icra edilmədiyini vurğulayıb.

Nazir bütün çətinliklərə, təcavüz və işğal faktına baxmayaraq, son on il ərzində ölkəmizdə yoxsulluq səviyyəsinin 49 faizdən 4 faizə qədər azaldığını, ümumi daxili məhsulun 3,5 dəfə artdığını və Azərbaycanın regionun aparıcı dövlətinə çevrildiyini bildirib. O, bütün bunların düzgün siyasi-iqtisadi strategiya və resurslardan səmərəli istifadə nəticəsində mümkün olduğunu diqqətə çatdırıb.

Elmar Məmmədyarov, həmçinin Azərbaycanın təlim, təhsil, iqtisadiyyat və fövqəladə hallarda yardıma dair məsələlər üzrə Əfqanıstana dəstək göstərdiyini vurğulayıb. O, ordu quruculuğu, ADA Universitetinin xətti ilə keçirilən kurslar, ANAMA-nın əfqan mütəxəssislər üçün təşkil etdiyi minalardan təmizləmə üzrə təlim proqramları, o cümlədən yerli əhali arasında mina təhlükəsizliyi üzrə dərsliklərin nəşr etdirilməsi barədə məlumat verib. Bu kimi yardımların davamlı xarakter daşıdığını deyən Elmar Məmmədyarov əfqan mütəxəssislərin Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasında ödənişsiz təhsil almaları məsələsinin də nəzərdən keçirildiyini qeyd edib.

Nazir çıxışında regional inkişafın təhlükəsizlik, sabitlik və davamlılıq kimi üç əsas meyarının olduğunu da vurğulayıb.

Elmar Məmmədyarov tədbir iştirakçılarının Azərbaycanın enerji siyasəti, TANAP və TAP layihələri, geostrateji əhəmiyyəti və regiondakı rolu barədə suallarını cavablandırıb.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Türkiyə Silahlı Qüvvələrinin üçüncü ordu komandanı ilə görüşüb

***Mayın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Azərbaycan-Türkiyə birgə hərbi təlimlərində iştirak etmək üçün Naxçıvana gələn Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı ordu generalı Ümit Dündar ilə görüşüb.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən bildirilib ki, qonağı salamlayan Ali Məclisin sədri birgə hərbi təlimlərin keçirilməsini hər iki ölkənin gücünün, eyni zamanda, Azərbaycan və Türkiyə orduları arasındakı birliyin göstəricisi kimi dəyərləndirib.

Muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirləri diqqətə çatdıran Ali Məclisin sədri deyib ki, düşmən dövlətlə sərhəddə yerləşməsi və blokada şəraitində yaşaması Naxçıvanda ordu quruculuğu tədbirlərini zərurətə çevirib. Bu gün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvanda yerləşən ordu birləşmə və hissələri torpaqlarımızın müdafiəsini etibarlı təşkil etməklə yanaşı, istənilən döyüş tapşırığını da uğurla yerinə yetirmək əzmindədir.

Ali Məclisin sədri Türkiyə Silahlı Qüvvələrinin muxtar respublikada ordu quruculuğuna göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar səmimi qəbula görə minnətdarlıq edib, Naxçıvanda keçirilən birgə hərbi təlimin hər iki ölkə arasında hərbi sahədə əməkdaşlıq üçün mühüm əhəmiyyət daşıdığını bildirib. Naxçıvanda bütün sahələrin inkişafının məmnunluq doğurduğunu qeyd edən Ümit Dündar ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin də qürurverici olduğunu vurğulayıb.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikasının Naxçıvandakı baş konsulu Nihat Ərşən görüşdə iştirak ediblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***15 may 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 82 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərindən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Yarımca, Çiləbürt, Göyarx, Qızıloba, Ağdam rayonunun Şuraabad, Şıxlar, Yusifcanlı, Kəngərli, Qaraqaşlı, Baş Qərvənd, Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# Müdafiə naziri general-polkovnik Zakir Həsənov Naxçıvandadır







***15 may 2015-ci il.***

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan-Türkiyə birgə taktiki təlimlərini izləmək məqsədilə Naxçıvandadır.

Müdafiə naziri təlimlərin növbəti mərhələsini müşahidə etmək üçün Naxçıvan Muxtar Respublikasına səfər edən Türkiyə Respublikasının 3-cü ordu komandanı ordu generalı Ümit Dündarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə birgə təlimlərin, müdafiə sahəsində təcrübə mübadiləsinin vacibliyi, hərbi əməkdaşlığın əhəmiyyəti və gələcək perspektivləri müzakirə edilib.

Sonra Müdafiə naziri və türkiyəli qonaqlar Naxçıvan şəhərinin mərkəzində ucaldılmış Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi önünə, Şəhidlər xiyabanına, türk şəhidliyinə gül dəstələri qoyaraq Heydər Əliyev muzeyini ziyarət ediblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib

***Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən mayın 12-dən etibarən Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin birgə taktiki təlimləri başlayıb.***





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar birgə taktiki təlimi izləyiblər.

Təlimdə 1000-dən artıq şəxsi heyət, 150-dən artıq döyüş və digər texnika, 50-ə yaxın artilleriya və reaktiv qurğu, 4 atəş dəstək vertolyotu, 6 ədəd zenit-raket qurğusu iştirak edib. Təlimlərin keçirilməsində əsas məqsəd Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirməklə koordinasiyanı inkişaf etdirmək, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Üç mərhələdə keçirilən təlimlərdə bölmələr tərəfindən qarşılıqlı uzlaşma şəraitində müxtəlif döyüş tapşırıqları praktiki şəkildə icra olunub. Təlimdə birgə əks-hücum əməliyyatlarının təşkili və aparılması, zirehli qrupların düşmənin müdafiə xəttini yarmaqla təyin olunmuş istiqamətdə əlverişli həddi ələ keçirməsi, taktiki-hava desantının düşmən bölmələrinin arxasına atılması və hakim yüksəkliklərin ələ keçirilməsi, hücumda olan qoşunların dəstəyi üzrə hava-hücumundan müdafiə qoşunlarının qarşılıqlı fəaliyyətinin öyrənilməsi mövzularında tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

Motoatıcı və tank bölmələri, raket və artilleriya qurğuları, zenit-raket kompleksləri və vertolyotlar döyüş atışları və raket buraxılışlarını həyata keçiriblər.

Təlim ssenarisinə əsasən hava hücumundan müdafiə bölmələri zenit-raket kompleks vasitələri ilə dövlət sərhədini pozan düşmən təyyarələrini məhv edib. Hərbi birləşmələrimiz yaylım atəşli reaktiv silahlar vasitəsilə hücuma keçən düşmənin idarəetmə məntəqələrini, canlı qüvvəsini, döyüş texnikalarını, artilleriya və minaatan batareyalarını zərərsizləşdirib, dayaq məntəqələrini və qovşaqlarını dağıdıb. Sonra atəş dəstək və döyüş-nəqliyyat vertolyotlarının müşayiəti ilə düşmən müdafiəsinin yaxın dərinlikdəki zirehli obyektlərinə zərbələr endirilib və düşmən üzərində atəş üstünlüyü əldə edilibdir.

Təmas xətti boyu mövqelərini gücləndirən və atəş üstünlüyünə yiyələnən Əlahiddə Ümumqoşun Ordusu bundan sonra düşmənə qarşı əks-hücum əmrini yerinə yetirib. Əvvəlcə özüyeriyən artilleriya qurğuları, müxtəlif çaplı toplar və minaatanlardan açılan atəşlə düşmənin canlı qüvvəsi məhv edilib. Ardınca tanklar, piyada döyüş maşınları, tank əleyhinə idarə olunan raket kompleksləri hücuma dəstək verərək düşmən müdafiəsinin ön xəttindəki atəş vasitələrinə zərbələr endiriblər. Bu zaman qarşı tərəfin müdafiə istehkamları və digər səhra qurğuları dağıdılıb, hərəkətdə olan və hərəkətsiz zirehli texnikalar yararsız hala salınıbdır. Əks-hücum əməliyyatına atəş-dəstək vertolyotları da qoşularaq düşmənin müdafiə dərinliyində aşkarlanmış canlı qüvvəsini və zirehli obyektlərini atəşə tutub.

Daha sonra Əlahiddə Ümumqoşun Ordusunun birləşmələri Türkiyə Respublikası Silahlı Qüvvələrinin gücləndirilmiş tabor taktiki qrupları ilə birlikdə düşmən müdafiəsinin ön xəttini yarıb, piyada döyüş maşınları və tanklar dərinliklərə nüfuz ediblər. Artilleriya bölmələri atəş mövqeyini dəyişməklə hücum edən bölmələrə dəstək verib, Əlahiddə Ümumqoşun Ordusunun ön dəstələri sürətli hücum təşkil edərək qarşı tərəfin mühüm rayonlarını və həddini ələ keçiriblər. Hərbi təlimdə səyyar tibb və təmir təxliyə qrupları da fəallıq nümayiş etdiriblər.



Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun birləşmələri və Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirib, birgə hərbi təlim müvəffəqiyyətlə başa çatıb.

Sonda hərbi vertolyotlar Azərbaycan və Türkiyə bayraqlarını səmada nümayiş etdirib, ümummilli lider Heydər Əliyevin "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" fikirləri səsləndirilibdir.

**(Ardı 3-cü səhifədə)**

# Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib

(Əvvəli 2-ci səhifədə)

Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev təlimin başa çatması barədə raport verdikdən sonra təlimdə iştirak edən şəxsi heyətlə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov qardaş Türkiyə Silahlı Qüvvələrinin nümayəndələrini, əsgər və zabitləri, eləcə də tədbir iştirakçılarını Azərbaycan-Türkiyə Silahlı Qüvvələrinin birgə təlimlərinin uğurla başa çatması münasibətilə təbrik edərək deyib: Bu təlimlər müstəqil ölkələrimizin iqtisadi və hərbi qüdrətinin göstəricisidir. 20-ci yüzilliyin əvvəlində böyük Mustafa Kamal Atatürk türk ordusunu yaratmaqla qardaş Türkiyəni xilas etdi. Həmin əsrin sonunda müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyev də milli ordumuzu yaratmaqla Azərbaycanı parçalanmaqdan xilas etdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu sahəsində başladığı taleyüklü işlərin və vəzifələrin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində bu gün Azərbaycan ordusu müstəqilliyimizin təminatçısıdır. Silahlı Qüvvələrimizin Naxçıvan Muxtar Respublikası ərazisindəki birləşmə və hissələri də böyük təşkilatlanma yolu keçmişlər. Naxçıvandakı motoatıcı briqada quruculuq tədbirləri nəticəsində peşəkar hərbi heyətə və güclü maddi-texniki bazaya malik Əlahiddə Ümumqoşun Ordusu səviyyəsinə gəlib çatmışdır.

Ali Məclisin sədri işğalçı erməni ordusu ilə üz-üzə dayanan Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrin yeni standartlar əsasında formalaşdırılmasında Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin təmənnasız köməyini xüsusi qeyd edib, qardaş Türkiyə dövlətinə və Silahlı Qüvvələrinə dərin hörmət və ehtiramını bildirərək deyib: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev əlaqələrimizin strateji əhəmiyyətini qiymətləndirərək demişdir: "Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür". Bu gün bu güc, bu birlik böyük Atatürkün vaxtı ilə "türkün qapısı" adlandırdığı Naxçıvanda özünü bütün əzəməti ilə bir daha göstərdi. Azərbaycan-Türkiyə birgə hərbi təlimləri bir tərəfdən ölkələrimiz arasında imzalanmış strateji tərəfdaşlığın, qardaşlığın göstəricisidirsə, digər tərəfdən ümummilli lider Heydər Əliyevin kəlamları ilə desək - iki dövlətin bir millətin bir ordusunun birliyinin nümunəsidir. Keçirilən birgə hərbi təlim bir daha göstərdi ki, o ordu güclü deyil ki, onun silah-sursatı və hərbi texnikası var. O ordu güclüdür ki, onun əsgər və zabitində döyüş ruhu güclüdür, vətənpərvərdir. Bugünkü təlimlər yüksək əsgəri ruhun, peşəkarlığın və vətənpərvərliyin ifadəsinə çevrildi.







Ali Məclisin sədri hərbi təlimdə iştirak edənləri uğurlu nəticə münasibətilə bir daha təbrik edib, təlimlərdə birgə iştiraka və tərəfdaşlığa görə təşəkkürünü bildirib və çıxışını "Yaşasın Azərbaycan-Türkiyə dostluğu!" ifadələri ilə tamamlayıbdır.

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov çıxış edərək deyib ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikasının da müdafiə potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilir. Hazırda Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu yüksək döyüş qabiliyyətinə malikdir. Bugünkü birgə təlimlər bir daha sübut etdi ki, Naxçıvandakı hərbi birləşmələrin döyüş hazırlığı yüksək səviyyədədir və şəxsi heyət istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Zakir Həsənov təlimdə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiklərinə görə şəxsi heyəti təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar deyib ki, birgə hərbi təlimlərin uğurla yerinə yetirilməsi dost və qardaş ölkələr olan Azərbaycan və Türkiyənin silahlı qüvvələrinin güc birliyinin göstəricisidir. Təlimləri izləyərkən bir daha əmin olduq ki, istər Azərbaycan Respublikasının, istərsə də Türkiyə Respublikasının silahlı qüvvələrinin bugünkü döyüş hazırlığı yüksək səviyyədədir. Hər iki silahlı qüvvələrin şəxsi heyəti verilən döyüş tapşırıqlarını peşəkarlıqla yerinə yetirməklə, eyni zamanda, iki ordu arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu nümayiş etdirdilər. Ümit Dündar birgə hərbi təlimlərin təşkilində və yerinə yetirilməsində əməyi olanlara minnətdarlıq edib, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Azərbaycan Respublikası Silahlı Qüvvələri ilə əməkdaşlığını bundan sonra da davam etdirəcəyini bildirib.



Sonda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar hərbi təlimdə iştirak edən şəxsi heyətlə xatirə şəkli çəkdiriblər.

## Naxçıvan şəhərindəki hərbi hissədə yeni qərargah binası və əsgər yataqxanası istifadəyə verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir".

Bu gün Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, maddi-texniki təchizatı və şəxsi heyətin xidməti şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhərində yerləşən hərbi hissə üçün yeni qərargah binası və əsgər yataqxanası inşa edilib.



Mayın 15-də qərargah binasının və əsgər yataqxanasının açılışı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü ordu komandanı, ordu generalı Ümit Dündar qərargah binasının açılışını bildirən lenti kəsiblər.

Məlumat verilib ki, yeni qərargah binası 4 mərtəbədən ibarətdir. Binada müasir xidmət otaqları, taktiki təlim sinfi və istirahət guşəsi vardır. Yeni qərargah binası müasir idarəetmə prinsiplərinə uyğun qurulub. Burada zabitlərin xidmət şəraitinin yüksəldilməsi üçün bütün imkanlar mövcuddur. Xidmət otaqları bütün lazımi avadanlıqlarla təmin edilib, kompyuterlər quraşdırılıb. Taktiki təlim sinfində proyektor və digər müasir təlim avadanlıqları qoyulub.

Binanın foyesində ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan ordusu haqqında söylədiyi fikirlərdən və ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin əks olunduğu fotoşəkillərdən ibarət guşələr yaradılıb.

Bina ilə tanışlıqdan sonra yeni əsgər yataqxanasının da açılışı olub.

Bildirilib ki, 3 mərtəbədən ibarət olan əsgər yataqxanası 900 yerlikdir. Burada yataq otaqları, məişət guşələri, istirahət otaqları, ideoloji, silah və zabitlər üçün xidməti otaqlar vardır. Yataqxanada əsgərlər üçün müasir sosial-məişət şəraiti yaradılıb. Yataq otaqları keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla təchiz olunub. "Xidmət etdiyim diyar" guşəsində muxtar respublikanın tarixi və təbiət abidələrinin, quruculuq ünvanlarının fotoşəkilləri yerləşdirilib.

Yüksək şəraiti olan əsgər yataqxanasının istirahət və təlim otaqları da müasir tələblərə cavab verir. Binada əsgərlərin asudə vaxtının səmərəli təşkili nəzərə alınıb, ideoloji otaqda ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən kitablar, bədii ədəbiyyatlar, məlumat stendləri, qəzet və jurnallar qoyulubdur.

Hər iki binanın həyətində də geniş abadlıq işləri aparılıb, mini futbol və voleybol meydançaları istifadəyə verilib.

## Əlahiddə Ümumqoşun Ordusuna xidməti avtomobillər və yük maşınları təqdim olunub

Həmin gün Naxçıvan Əlahiddə Ümumqoşun Ordusuna yeni xidməti avtomobillər və yük maşınları təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov yeni xidməti avtomobillərə və yük maşınlarına, eləcə də Əlahiddə Ümumqoşun Ordusunun digər döyüş texnikalarına baxıblar.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissə və bölmələrinə 10 ədəd yeni "Naz lifan" markalı xidməti avtomobil və 20 ədəd "Kamaz" markalı yük maşınları verilib, maddi-texniki baza daha da möhkəmləndirilibdir.



Hazırda hərbi hissələrin bazasında ən müasir döyüş texnikaları və müxtəliftəyinatlı avtomobillər vardır. Atəş idarəetmə maşınları, yüksək hündürlükdə meteoroloji şəraiti ölçmə sistemi, təxliyə avtomobilləri, ultrasəs və ekokardioqrafiya aparatı ilə təmin olunmuş tibb qoşquları, zabit və rəis heyətinin səhra şəraitində iş və istirahətinin təşkili üçün nəzərdə tutulan qoşqu və avtomobillər döyüş zamanı şəxsi heyətin fəaliyyətinin düzgün təşkilinə imkan verir.

Nümayiş etdirilən müasir yaylım atəşli reaktiv sistemlər, tanklar, zirehli döyüş maşınları, artilleriya qurğuları, müxtəlif çaplı silahlar istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə imkan verir. Səhra şəraitində istifadə olunan müasir texniki vasitələr də ən yüksək tələblər səviyyəsindədir. Səyyar texniki-təmir emalatxanaları çətin təbii xidmət şəraitində geniş imkanlara malikdir.

# Xəbərlər: hadisələr, faktlar

## Ayətullah Xamneyi: İranın təhdid olunması davam etsə, danışıqlar dayandırılacaq



İranın ali dini rəhbəri Ayətullah Əli Xamneyi bəyan edib ki, əgər İranın təhdid olunması davam edərsə, nüvə proqramı ilə bağlı danışıqlar dayandırılacaq.

Xatırladaq ki, İran ilə "altılıq" (ABŞ, Fransa, Böyük Britaniya, Rusiya, Çin və Almaniya) ölkələrinin nümayəndələri arasında rəsmi Tehranın nüvə proqramı ilə əlaqədar Lozannada keçirilən görüşlərin nəticəsində danışıqların davam etdirilməsi və cari il iyunun 30-na qədər yekun müqavilənin imzalanması haqqında razılıq əldə edilib. Bu razılıq ABŞ-ın özündə və bəzi dövlətlər tərəfindən birmənalı qarşılanmayıb.

## Rusiya hökuməti miqrantlarla bağlı qanuna dəyişiklik olunmasını təklif edir




Rusiya hökuməti peşəsi üzrə işləməyən əmək miqrantlarının cərimə olunmasını təklif edir.

Dövlət Dumasına təklif olunmuş qanun layihəsinə əsasən, işləmək üçün alınmış icazədə (patentdə) göstərilmiş peşə üzrə işləməyən miqrantlar 7 min rubl (təxminən 140 manat) məbləğində cərimə oluna və deportasiya edilə, işə qəbul edən tərəf isə fəaliyyəti 90 gün müddətinə dayandırılmaqla bir milyon rubl (təxminən 20 min manat) məbləğində cərimə edilə bilər.

Eyni zamanda, miqrant peşəsini dəyişdiyi halda patentdə dəyişiklik edilməsinin mümkünlüyü də nəzərdən keçirilir.

## Finlandiyada ehtiyatda olan hərbçilərin ən böyük səfərbərliyi başlanıb



Finlandiyanın Silahlı Qüvvələri ehtiyatda olan təqribən 900 min hərbçiyə çağırış göndərib. Silahlı Qüvvələrin nümayəndəsi Mika Kalliomaa deyib ki, çağırışlarda müharibə vaxtı üçün ehtiyatda olanların fəaliyyəti barədə məlumat vardır.

Bu il Finlandiyanın müdafiə büdcəsi 3 milyard dolladək azalıb.

Keçən həftə hərbçilər Helsinki yaxınlığında dənizdə naməlum sualtı qayıq göründüyünü bildiriblər. Bazar ertəsi isə Finlandiya KİV-ləri ölkənin sahilləri yaxınlığında naməlum sualtı qayığın fotoşəkillərini dərc edib.

## İŞİD komandirləri üçün beşulduzlu otel



İŞİD İraqın şimalında yerləşən Mosul şəhərində komandirlər üçün nəzərdə tutulmuş beşulduzlu otel hazırlayıb.

AZƏRTAC RİA Novosti informasiya agentliyinə istinadla xəbər verir ki, qruplaşma ötən il bölgənin ələ keçirilməsindən sonra bağlanmış Ninava International Hotelin keçmiş binasını qonşu əyalətlərdən gələn səhra komandirləri üçün xüsusi olaraq təmir etdirib.

İŞİD komandirlərinə xidmət edəcək otelin 11 mərtəbəsində ümumilikdə 262 nömrə yerləşir. Bundan başqa, onun ərazisində tennis kortu, hovuz, mərmər döşəməli qəbul otağı, yaxınlıqda isə palma bağları var.

## Almaniyanın şimalında güclü qasırğa baş verib



Almaniyanın şimalı güclü siklonun təsiri altındadır. Bəzi rayonlarda küləyin sürəti saatda 119 kilometrə çatıb.

AZƏRTAC Euronews telekanalına istinadla xəbər verir ki, Hamburq şəhərində avtomobilin üstünə ağacın düşməsi nəticəsində bir nəfər sürücü həyatını itirib. Şəhərin bəzi rayonlarında avtomobillərin hərəkəti iflic olub.

Qasırğa nəticəsində Byutsov şəhərinə ciddi zərər dəyib. Küçələrdə dam örtükləri və şüşə qırıqları qalaqlanıb, yol nişanları aşıb, onlarla avtomobil çevrilib və 30-dək insan xəsarət alıb. Hamburq və Lyubek şəhərləri arasında dəmir yol əlaqəsi kəsilib.

## Beynəlxalq Telekommunikasiya İttifaqı 5G rabitənin yeni standartını tətbiq etmək niyyətindədir



Beynəlxalq Telekommunikasiya İttifaqında (BTİ) xüsusi işçi qrupu yaradılıb. İşçi qrupunun üzvləri 5G standartın tətbiq edilməsi sahələrinin tədqiqi ilə məşğul olacaq. Bu texnologiya hazırda smartfonlarda və planşet kompüterlərdə istifadə olunan 4G formatını əvəz edəcək.

AZƏRTAC BMT-nin xəbərlər mərkəzinə istinadla xəbər verir ki, bu, böyük həcmli məlumatların yüksək sürətlə ötürülməsi və qəbulunun həyata keçirməyə kömək edən yeni nəsil simsiz rabitənin bir növüdür.

Mütəxəssislər hesab edirlər ki, yeni format avtomatlaşdırılmış cərrahiyyə, virtual reallıq, robotlaşdırılmış sistemlərin hazırlanması, sənaye və nəqliyyat vasitələrinin avtomatlaşdırılması kimi innovasiya sistemlərində istifadə oluna bilər.

## İşsizliyin ən aşağı səviyyədə olduğu regionların adları açıqlanıb




Bütün Avropa İttifaqında regional işsizliyin ən aşağı göstəricisi Praqa və Almaniyanın Yuxarı Bavariya əyalətindədir: cəmi 2,5 faiz. Bu rəqəmləri Avropanın "Avrostat" Statistika Agentliyi açıqlayıb. Aİ çərçivəsində işsizlərin çoxu İspaniyanın Əndəlus vilayətində müşahidə olunur: 34,8 faiz. Avropanın 54 regionu və iri şəhərində əmək qabiliyyətli əhalinin 5 faizdən az hissəsi iş tapa bilmir, halbuki 29 regionda, əsasən, İspaniya, Yunanıstan və İtaliyada bu göstərici 20 faizi ötüb.

Çexiya əhalisinin məşğulluğu sahəsində rəsmi statistik məlumata görə, Praqada işsizliyin səviyyəsi 5 faizdən bir qədər çoxdur.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

*“Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır”*

# “İctimai-siyasi hazırlıq üzrə ən yaxşı qrup”

***2015-ci ilin hazırlıq planına əsasən, Əlahiddə Ümumqoşun Ordusunda birləşmə və hərbi hissələr arasında "İctimai-siyasi hazırlıq üzrə ən yaxşı qrup" adı uğrunda müsabiqənin keçirilməsinə başlanılıb.***





Müsabiqə 19 iyun 2015-ci il tarixinədək davam edəcək.

Müsabiqədə əsas məqsəd aşağıdakılardır:

- hərbi qulluqçular arasında ümummilli lider Heydər Əliyev irsinin təbliği, onlarda Azərbaycan Respublikasının Prezidentinə sədaqət, Vətənə, xalqa məhəbbət, Konstitusiyaya ehtiram ideyasını düzgün formalaşdırmaq, şəxsi heyətin hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, Hərbi Anda, nizamnamələrə sadiq olmaları, komandirlərə inam hissinin gücləndirilməsi məqsədi ilə ictimai-siyasi hazırlıq dərslərinin ümumbəşəri dəyərlər və Azərbaycan xalqının adət-ənənələri, tarixi və milli dəyərləri ruhunda, yüksək dünyagörüşlü, mədəni-maarif tərbiyəsi məzmununda təşkil olunmasına nail olmaq;
- qrup rəhbərlərinin metodiki qabiliyyətinin, pedaqoji ustalığının artırılması;
- bölmələrdə şəxsi heyətin siyasi biliyinin, ideoloji hazırlıq səviyyəsinin yüksəldilməsi;
- şəxsi heyətin mənəvi-psixoloji hazırlıq səviyyəsinin artırılması, hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsi;
- ictimai-siyasi hazırlıq dərslərində mədəni-maarif və texniki-təbliğat vasitələrindən istifadənin təkmilləşdirilməsi.

20 iyun 2015-ci il tarixdə müsabiqəyə yekun vurulacaq. Silahlı Qüvvələr Gününə həsr olunmuş bayram tədbirində isə qaliblər mükafatlandırılacaq.

**Nəriman NƏCƏFOV,**
**Naxçıvan**

## Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# Qələbə sevinci

Hər yerdə olduğu kimi, Şəmkir rayonunda da Böyük Vətən müharibəsində Qələbənin 70 illiyinə həsr olunmuş təntənəli mərasim keçirildi. Öncə Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov və general-leytenant Rövşən Əkbərov müharibə veteranları ilə səmimi görüşdülər. Sonra Böyük Vətən müharibəsində həlak olanların şərəfinə ucaldılmış xatirə kompleksinin önündə əlamətdar hadisəyə həsr olunmuş mərasimi icra hakimiyyəti başçısının müavini Fəxrəddin Vəliyev açıq elan etdi. Ümummilli lider Heydər Əliyevin, müharibə qurbanlarının və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Polkovnik Elşad Əbilov Böyük Vətən müharibəsi veteranlarına Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik məktubunu oxudu.

Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov çıxış edərək Böyük Vətən müharibəsində qələbənin əldə edilməsində xalqımızın göstərdiyi böyük qəhrəmanlıqlardan, şücaətlərdən danışdı. Veteranlara həmişə diqqət, qayğı göstərən ulu öndərimiz Heydər Əliyev onları xalqımızın "Qızıl fondu" adlandırmışdı. Bu gün də respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən bu yol uğurla davam etdirilir. Memarı və qurucusu ulu öndərimiz olan Silahlı Qüvvələrimiz son illər daha da inkişaf etdirilmiş, maddi-texniki cəhətdən yüksək səviyyədə təchiz edilmişdir. Ölkə rəhbərliyi tərəfindən ordumuzun gücləndirilməsinə daim qayğı göstərilir. Dəfələrlə Ali Baş Komandanımız bildirmişdir ki, torpaqlarımızı necə olursa-olsun, düşmənlərdən azad edəcəyik. Bu istiqamətdə həyata keçirilən tədbirlər ordumuzun daha da möhkəmləndirilməsinə xidmət edir. İnanırıq ki, Böyük Vətən müharibəsində ata-babalarımızın göstərdikləri qəhrəmanlıqları xalqımızın övladları torpaqlarımızın azadlığı uğrunda düşmənə qarşı döyüşlərdə təkrarlayacaq, ölkəmizin ərazi bütövlüyünü təmin edəcəklər. Xalqımız Xankəndidə, Şuşada, işğal olunmuş digər rayonlarımızda və ölkəmizin hər yerində bu qələbəni təntənə ilə qeyd edəcək.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidməti Şəmkir rayon şöbəsinin rəisi polkovnik-leytenant Şaiq Məmmədov, rayon veteranlar şurasının sədri İsfəndiyar Gözəlov və başqaları da veteranları təbrik etdilər.

**"Azərbaycan Ordusu"**

*Texniki xidmət*

# Silah və texnikaya mövsümi qulluq göstərilir

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, ordumuzun hərbi hissə və birləşmələrində silah və texnikanın payız-qış mövsümünə keçirilməsilə bağlı kompleks tədbirlər həyata keçirilir. Məqsəd isə müəyyən edilmiş müddətədək hərbi hissədə bütün silah və texnikanı yeni mövsümə yüksək səviyyədə hazırlamaqdır.***





- "N" hərbi birliyində tədbirlər planına əsasən, tabelikdə olan hərbi hissələrin bu sahədə xidmət aparan zabit heyətləri üçün nümunəvi dərslər təşkil edilmişdi, - zabit Taleh Məmmədov bizimlə söhbətində dedi. - Silah və texnikanın yaz-yay mövsümünə keçirilməsilə bağlı tədbirlər mayın 4-dən başlanıb. Hazırda burada nümunəvi dərsləri keçirməkdə məqsədimiz yeni tələblərə uyğun mövsümi işlərin keçirilməsini göstərməkdən ibarətdir.

Ümumilikdə burada 8 təlim nöqtəsi yaradılmışdı. Hərbi hissənin geniş meydançasında atıcı, artilleriya, zenit silahlarına, o cümlədən zirehli texnikaya və avtomobillərə nümunəvi texniki qulluq göstərilirdi. Heyətlər həmin silah və texnikanı dəqiqliklə yoxlayır, silib təmizləyir və hazır vəziyyətə gətirirdilər.

Şəxsi heyət həmçinin silahları tozdan, çirkdən təmizləyir, onların lülələrini və ayrı-ayrı hissələrini yağlayırdılar. Mövsüm işlərinin görülməsi eynilə sursata da aiddir və döyüşçülər ehtiyatla, texniki təhlükəsizlik qaydalarına riayət etməklə qulluq göstərirdilər. Hamı burada öz işinə yetərincə məsuliyyətlə yanaşır, texniki qulluğu səliqə ilə yerinə yetirirdi. Əslində bu da təbiidir. Sabah bu texnikada onlar döyüş tapşırığını yerinə yetirəcəklər.

Hərbi hissələrdən gəlmiş silah və texnika üzrə cavabdeh zabitlər bu məşğələlərdə mövsümi işlərin necə təşkil edilməsilə tanış olurdular.

Hərbi hissələrdən aldığımız məlumata əsasən, silah və texnikanın payız-qış mövsümünə keçirilməsilə bağlı proses öz qaydasında gedir, texnikada aşkar edilən çatışmazlıqlar mütəxəssislər tərəfindən aradan qaldırılır. Bundan öncə şəxsi heyət tərəfindən müvafiq sənədlər hazırlanıb. Mövsümi xidmət zamanı hansı işlərin görüləcəyilə bağlı planlaşdırma aparılıb.

Artıq mütəxəssislər tərəfindən avtomobillərə və döyüş texnikalarına texniki qulluq göstərilərək saz vəziyyətdə sıraya qoyulur. Hər bölmə tapşırıqları ardıcıllıqla yerinə yetirir və bir çox işlər artıq həyata keçirilib.

Hərbi hissə və bölmələrin döyüşə hazır olması təkcə şəxsi heyətin taktiki-ixtisas hazırlığından deyil, eyni zamanda onlara həvalə olunmuş silah və texnikanın saz vəziyyətdə saxlanmasından, vaxtlı-vaxtında onlara lazımi texniki qulluq göstərilməsindən asılıdır. Ona görə bütün qoşun növlərində bu vacib sahə daim diqqətdə saxlanılır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan milli mətbuatının 140 illik yubileyi ilə bağlı mühüm dövlət tədbirləri keçiriləcək

Azərbaycan milli mətbuatının 140 illik yubileyi ilə bağlı mühüm dövlət tədbirləri keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov mayın 15-də jurnalistlərə müsahibəsində deyib.

Əli Həsənov bildirib ki, 140 illik yubileylə bağlı Azərbaycan Prezidenti xüsusi Sərəncam imzalayacaq. Azərbaycan milli mətbuatının 140 illik yubileyinin təşkili və keçirilməsi tədbirləri haqqında həmin Sərəncam artıq hazırlanır. Bundan sonra həmin tədbirlərin reallaşdırılması məqsədilə Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri müvafiq Tədbirlər Planını təsdiq edəcək.

*Nəsillərə nümunə*

# Veteranlara qayğı



Gəncə Qarnizonu Zabitlər Evində mədəni-kütləvi tədbirlərin, əlamətdar tarixi günlərin keçirilməsi ənənə halını alıb. Böyük Vətən müharibəsində Qələbənin 70 illiyinin keçirilməsi haqqında Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamına əsasən keçirilən tədbirlərdə, veteranlarla görüşlərdə onların keçdiyi döyüş yolları haqqında danışılıb. Veteranlar ulu öndər Heydər Əliyev tərəfindən onlara həmişə diqqət və qayğı göstərildiyini xatırladaraq əbədiyaşar komandanın həyat və fəaliyyətinin müasir nəsillərə örnək olduğunu bildiriblər. Dahi rəhbərin ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsində böyük xidmətlərindən danışan müharibə veteranı İmran Əsgərov bildirib ki, Heydər Əliyev dühasının qüdrəti sayəsində respublikamız inkişaf edib, böyük quruculuq işləri həyata keçirilib. Ordumuz inkişaf edərək Qafqaz regionunun güclü ordusuna çevrilib. “Biz veteranlar ölkəmizin əldə etdiyi böyük nailiyyətlərdən qürur duyuruq. İnanırıq ki, ordumuz torpaqlarımızı düşmənlərdən azad edəcək, üçrəngli bayrağımız Xankəndidə, Şuşada, Kəlbəcərdə, Laçında... dalğalanacaqdır”.

Bayram günündə Zabitlər Evinin əməkdaşları Samirə Bayramova, Günay Paşayeva, Azər Bayramov və Şəfa Vəli veteranlara baş çəkərək onları Qələbənin 70-ci ildönümü münasibətilə təbrik ediblər.

Müharibə veteranları Davud Məmmədov, Tofiq Hüseynov, Rüstəm Verdiyev, Bəşir Bağırov, Yəhya Əliyev, Vəli Hüseynov və başqaları göstərilən diqqət və qayğıya görə Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

*Fiziki hazırlıq*

# Hərbi Hava Qüvvələrində cüdo birinciliyi

***Orduda şəxsi heyətin döyüş qabiliyyətinin artırılmasında önəm kəsb edən amillərdən biri də fiziki hazırlığın yüksək olmasıdır. Bu məqsədlə də hərbi qulluqçuların idmana marağının, fiziki vərdişlərinin möhkəmləndirilməsinə ciddi fikir verilir. Son vaxtlar ordu rəhbərliyinin göstərişi ilə vacib idman növləri üzrə yarışların keçirilməsi dəyərli ənənəyə çevrilib.***



Bu yaxınlarda Hərbi Hava Qüvvələrinin şəxsi heyəti arasında cüdo birinciliyinə yekun vurulub və "N" hərbi hissəsində həm final mərhələsi, həm də mükafatlandırma mərasimi keçirilib.

Polkovnik-leytenant Bünyam Hümbətovun redaksiyamıza verdiyi məlumata görə, hərbi hissənin stadionunda final yarışları gərgin mübarizə şəraitində keçib. Həm zabit, həm də əsgərlər arasından seçilən idmançılar öz komandalarına qalib yerləri qazandırmaq üçün bacarıq və səylərini nümayiş etdiriblər.

Final mərhələsini açıq elan edən polkovnik-leytenant İkram Səfərov komanda və fərdi birincilikdə güclərini sınayan hərbi qulluqçuları salamlayıb, yarışların sonuncu günündə qalib olmaq üçün onlara uğurlar arzulayıb. Təcrübəli hakimlərin idarə etdiyi yarışlarda hər kəs qalib adını qazanmaq üçün əzmlə mübarizə aparıb. Nəhayət, yarışlar başa çatıb və qaliblər elan olunub. Əsgərlərdən Billuri Xəlilov, Vüqar Şirinov, Zahid Qurbanlı, Həmid Həmidli, Şəmsəd Qasımov, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Şahmar Həsənquliyev və leytenant Pərviz Qasımov müxtəlif çəki dərəcələrində yüksək xal toplayaraq fərdi hesabda birinci yerləri tutublar. Komanda hesabında isə kapitan İntiqam Məmmədovun komandası birinci, mayor Azər Şahverdiyevin komandası ikinci və baş leytenant Cavad Məmmədovun komandası üçüncü yerləri tutublar.

Qaliblərə mükafatları Hərbi Hava Qüvvələrinin fiziki hazırlıq və idman üzrə nümayəndəsi polkovnik-leytenant Afiq Əliyev və yarışların keçirildiyi "N" hərbi hissəsinin komandiri polkovnik-leytenant İkram Səfərov təqdim ediblər.

Qəzetimizin çoxminli oxucu heyəti adından qalibləri təbrik edir və onlara növbəti sınaqlarda yeni uğurlar arzulayırıq.

**"Azərbaycan Ordusu"**

***Dədə Qorqud zamanında əli silah tutanların hamısı Oğuzların torpaqlarının qoruyanı idi. Onda dövlət olmasa da, sərhəd olmasa da, hamı əsgər vəzifəsini yerinə yetirirdi. Dövlətlər yaranında da, araya şərti sərhədlər düşəndə də, ərazi qorunub - ordu qoruyub; ordu cəmiyyətin (dövlətin) güvənc yeri olub. Cəmiyyət (əhali) ordunun hər cəfasına qatlaşıb. Bu birlik dövlətin varolma düsturudu.***

*Ordu və cəmiyyət*

# Nə yaxşı belədi...

Səfəvilər dövründə də eləydi, sonralar da. Yüz-yüz illərdi belədi. Döyüşməyə gücü, qüvvəti olan döyüşüb, gücü-qüvvəti olmayan bir işin qulpundan yapışıb, döyüşənlərə libas göndərib, azuqə göndərib. "Tütək səsi" bədii filmini xatırlayaq. Camaatın orduya münasibəti həmişə belə olub. Indi də belədir; camaat (əhali) ordusunu sevir, onu yaşadığı dövlətin sipəri hesab edir.

1992-ci ilin fevralında "Xalq Ordusu" (indiki "Azərbaycan Ordusu") qəzetinin əməkdaşı kimi Füzuli rayonunda ezamiyyətdəydik. Mən, bir də Söhbət Səfərli. Dördlər kəndindəydik. 10-12 evlik kiçik kənd idi. Yazıçı Sabir Əhmədovu orda görəndə elə bil gözlərimizin işığı artmışdı. Uğurumuza ad olan maraq, camaatın güzəranına pərsəng olan narahatlıq mətləb-mətləb sözün işığında çözüləcəkdi. Bu kəlmələşməni könül xoşluğuyla yaşayacaqdıq. Onlar da, biz də... Sabir müəllimin əhatəsində dörd ağsaqqal vardı, üç ağbirçək. Fevral ayı olmasaydı, düşünərdim ki, hamı işdə-gücdə, əkin-biçindədi. Belə deyilmiş. Söhbətarası məlum oldu ki, əli silah tutanlar kəndin müdafiəsindədi.

Səmimiyyət söhbətlə şirinləşir; şirin söhbətin cazibəsindəydik. Biz kəndin yaşlılarının inamına tapınmışdıq, yaşlılar sözün qüdrətinə. Yaşı 70-i haqlayan nənəni görüncə Sabir müəllim gülümsünərək "Hardan gəlirsən, ay nənə?" - soruşdu. Bu, adi sorğu deyildi, kəndin üfüqlərindən dikələn qadalara yazıçı duyumunu tərpədən narahatlığıydı, şübhəsiz. Nənəm qarı ayaq saxlayıb gülümsünmüşdü. Nəfəsini dərib, ağır-ağır dillənmişdi:

- Balalarımın yanından gəlirəm, ay oğul, - demişdi. - Onlara dovğa aparmışdım. Biş-düşümdən onlar yeməmiş əlimi çörəyə-xörəyə uzatmaram.

Bineyi-qədimdən belədi. El təəssübü çəkənlərə gözünün yağını da yedirtməlisən. Belə görmüşük. Belə də olacaq...

Ağbirçəyin balalarım adlandırdığı əsgərlər kəndin müdafiəçiləriydi. Onları hamı öz oğlu, ciyərparası bilir. Sabir müəllimin bir ifadəsi yadımdadı:

- Xalqın orduya bu münasibəti milli-xəlqi məsələdi. Yüz illərlə belə olub. Sabah da belə olacaq.

Dördlər kəndində bir daha əmin olduq ki, ordu xalqı, dövləti qoruyur, xalq ömrünü ordunun yaşamına üzərlik bilir.

Bu yaxınların söhbətidi. Hərbi hissələrdən birində andiçmə mərasimindəydim. Tədbir başa çatanda ağır addımlarla toplaşanlara yaxınlaşan bir ana gördüm. Gözlərində sezilməsi çətin olan bir qəhər, qəhərdən boylanan bir sevinc vardı. O qəhər nə qəhər idi - bilmədim. O sevinc bugünkü tədbirə ad olan sevinc idi, şübhəsiz. Məlum oldu ki, o ana hər bayram günlərində hərbi hissəyə gəlir. Gün buraxılışına gedən 2-3 əsgəri birgə evinə qonaq aparır. Ona elə gəlir ki, belə eləməsə, rahatlıq tapa bilməz. Ana ordumuza varlığı ilə bağlı anadır.

Bu səmimiyyəti, bu doğmalığı ifadə eləməyə çətinlik çəkirəm...

O ana xalqı təmsil edir, ordunun dəyərini layiqli mərtəbəsində saxlayır. Əsgər (Ordu) ananı (Vətəni) anası əvəzi sevir; ana şəfqəti, ana qayğısı gördüyü qadın onun ömrünün bundan beləsi üçün yaşam fəlsəfəsi olur. Bu fəlsəfə indi milli dəyərlərimizdəndir. Nə yaxşı belədi. Nə yaxşı...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

Baş gizir Əsgərov Eldəniz Hidayət oğluna 2009-cu ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. “Azərbaycan Ordusu” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 455
Nüsxə 4600